## İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə 400 manat məbləğində müavinət müəyyən edilsin.[1]

2. Müəyyən edilsin ki, bu qərarın 1-ci bəndi ilə bağlı maliyyələşdirmə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.[2]

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 17 iyun 2006-cı il**
**№ 152**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 may 2010-cu il tarixli 99 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 5, maddə 476)
2. 3 avqust 2012-ci il tarixli 170 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (“Azərbaycan” qəzeti, 7 avqust 2012-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №08, maddə 821)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 27 may 2010-cu il tarixli 99 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 5, maddə 476) ilə 1-ci bənddə “şərti maliyyə vahidinin 30 misli” sözləri “200 manat” sözləri ilə əvəz edilmişdir.

3 avqust 2012-ci il tarixli 172 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (“Azərbaycan” qəzeti, 7 avqust 2012-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №08, maddə 821) ilə 1-ci hissəsində "200" rəqəmi "400" rəqəmi ilə əvəz edilmişdir.

[2] 27 may 2010-cu il tarixli 99 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 5, maddə 476) ilə 2-ci bənd 3-cü bənd hesab edilmişdir və 2-ci bənd əlavə edilmişdir.